inşasını sadə konstruksiyadan başlamalıdır. Əvvəlcə, bünövrə tökülür, kərpic qoyulur, sonda beton plitələr yerləşdirilir. Oxucuya əvvəldən beton plitə təqdim edilsə, çaş-baş qalacaq. Uzun cümlə yazılışı nasirin sənətkarlığıdır. 10 fikri bir cümlədə yerləşdirmək hər yazıçıya nəsib olmur. Ancaq uzun cümlədən bir şey anlaşılmırsa, axıcılıq yaranmırsa, bu yalnız söz yığnağıdır. İnanmıram ki, Tolstoyun "Hərb və sülh" əsərindəki uzun cümlələr kiminsə ürəyincədir. Uzun cümlənin başa düşülməsi üçün oxucunun bazası və səbri kifayət qədər yerində olmalıdır.

4.Dayanmadan yazmaq. Bəzən yazıçılar əsəri yazarkən ayağa qalxıb çay içir, yaxud həyətdə gəzirlər. İnsan şüuru belə kiçik fasiləni bağışlamır. Siz onu yazıya, hadisələrin mahiyyətinə kökləyirsiz və birdən ürəyiniz qəhvə istəyir. Yenidən yazı masasına qayıdanda fikrinizi toplaya bilmirsiz. Toplayanda isə bayaqkı axıcılıq yaranmır, ardıcıllıq pozulur. Oxucu həmin yerdə nəyinsə yarımçıq qaldığını tez duyur. Nəfəs almadan oxumaq prosesi pozulur. Fasilə vermədən yazın. Pis-yaxşı yazın. Cümlələri redaktə zamanı da düzəltmək mümkündür. Dünya yazıçıları hesab edir ki, bəzən nasirlərin əsəri tam başa çatdırmadan oxumaları, bundan zövq almaları sonrakı gedişata təsir göstərir. "Mən necə də pis yazmışam" fikri onları işindən yarımçıq saxlayır. Klassik yazıçıların yazı tərzi müasirlərə nümunədir. Onların xatirələrini nəzərdən keçirməklə görmək olar ki, necə aramla yazıblar, qaralamalar üzərində necə işləyiblər, mətnə nə vaxt və necə qayıdıblar. Müasir dövrdə nasirlər yazdıqlarını kiməsə oxumağı xoşlayırlar. Bəzən dosta zəng edirsən ki, yazdığını oxuyub fikrini öyrənəsən. Amma dost dəstəyi götürmür. Pis olursan. Ertəsi gün yazdığına bir də nəzər salanda düşünürsən ki, "yaxşı ki, dəstəyi götürməyib". Çünki ilk təəssüratda şedevr görünən əsər, sonrakı ağılla ciddi redaktəyə məruz qalır.

5."Hər bir savaş ilk zərbədən başlanır". Məşhur yazıçılar hesab edir ki, ilk cümlə zərbə təsiri bağışlamalıdır. Oxucunu cəlb edəndən sonra həmin zərbə və savaşı rəngləyirsən, müəyyən çalar qatırsan. Belə əhatəli təsvir oxucunu yormur, çünki ilk cümlə onları sonrakı gedişata kökləyir. Joze Saramaqonun "Təxirə salınmış ölüm" əsərindəki ilk cümləyə nəzər salaq: "Ertəsi gün heç kim ölmədi". Məhz bu cümlə oxucunu daha yaxına çəkir. Necə yəni ertəsi gün heç kim ölmədi? Bu yazıçının cəlbetmə peşəkarlığıdır. Zərbə xarakteri daşıyan cümlə yazıçının işini asanlaşdırır və "nədən yazım", "nədən başlayım" suallarına cavab tapılır.

6.Hər bir əsərdə baxış bucağı, yanaşma tərzi fərqli olmalıdır. Əgər yeni ədəbi üslub yoxdursa, əsər banaldırsa, elə əvvəldən səbətə atılmalıdır.

7.Kağıza heyfiniz gəlsin. Müasir dövrdə kağız çox ucuzdur. Məhz bu baxımdan yazıçı kağızda yazıb-pozur, səbətə atır, cırıb tullayır. Təsəvvür edin ki, kağızı hər hansı ceyranın dərisindən hazırlayırlar və çox bahadır. Onda yazıçı daha yaxşı yazmağa çalışacaq. Yüz dəfə ölçüb bir dəfə biçəcək, bu da əsərin möhtəşəmliyini şərtləndirəcək. Yeri gəlmişkən, kağız məsələsində də fikirlər haçalanır. Məsələn, Stiven Kinq hesab edir ki, əsər əvvəlcə kağızda yazılmalı, sonra kompyüterə köçürülməldiir. Birbaşa kompyüter əsərlərə zəif quruluş verir. Primitiv yanaşma və köhnə adətin bərpası olsa da, bu variant işləyir. Yaxşı yazıçıların hər birinin öz fəlsəfəsi var. Onlar bu fəlsəfəni özləri yaratmırlar. Fəlsəfə əsəri ümumi mahiyyətindən anlaşılmalıdır. Hər bir nasirin yanında qeyd dəftərçəsi olmalıdır. Hətta məşhurlardan biri belə deyib: "Əgər ağlına gələn fikri tez yazmadınsa, heç vaxt yazmayacaqsan". Nasirlərin səhvi həm də ondadır ki, əsəri qələmə alıb bitirdikdən sonra nəşriyyata verməyə tələsirlər. Xarici ölkələrin yazıçıları bunun sadə yolunu tapıblar. Onlar əsəri redaksiyalara təqdim edirlər. Əgər babat məbləğ təklif olunursa, deməli yaxşı yazmısan. Təklif edilmirsə, deməli hələ çox yazmalısan.

**Ədəbiyyat qəzeti.- 2017.- 20 may.- S. 5.**